AZƏRBAYCAN RESPUBLİKASI
SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR)
TƏŞKİLATLARI MİLLİ
KONFEDERASİYASI

NATIONAL CONFEDERATION
OF ENTREPRENEURS (EMPLOYERS')
ORGANIZATIONS OF
AZERBAIJAN REPUBLIC

Azərbaycan Respublikası, Bakı ş. Az 1110
Akademik Həsən Əliyev küç. 57, 3-cü mərtəbə
T/f (99412) 465 72 43 T: 465 72 44; 465 72 45; 465 72 46

Acad. Hasan Aliyev str. 57 Baku Az 1110, 3-rd floor
Azerbaijan Republic web site: www.ask.org.az
E-mail: azerenterprise@liderkart.com

№ 221P «11» 10 2006

Şirkət rəhbərlərinin nəzərinə!

13-17 noyabr 2006-cı il tarixində Türkiyənin Adana şəhərində TÜYAP beynəlxalq sərgi mərkəzində **1-ci Çukurova Ticarət və Sənaye Sərgisi** keçiriləcəkdir. Sərgini Türkiyə Respublikasının baş naziri Rəcəb Tayip Erdoğan açacaqdır.

Sərgi inşaat və inşaat materialları, qida, mağaza və market avadanlıqları, ev, bağça, ofis avadanlıqları, hazır geyim, ayaqqabı, dəri, idman malları, uşaq mebeli, saat və optik alətlər, avtomobil, avtobus, velosiped, motosikl, bu sahənin aksesuarları və kənd təsərrüfatı məhsulları və avadanlıqlarını əhatə edir.

Azərbaycandan 100 nəfər iş adamı bu sərgidə iştirak etmək üçün dəvət olunurlar. Sərgi salonunda Azərbaycan şirkətləri üçün 100 kv. m. sahə ayrılacaqdır. 1 kv. m. sahənin qiyməti – 250 $, Azərbaycan sahibkarları üçün – 50 $ təşkil edir.

Sərgi iştirakçıları 5 ulduzlu Hilton otelində yerləşdiriləcəkdir. 3 günlük / 2 gecəlik otel xərcləri dəvət edən tərəfindən ödəniləcəkdir.

Yol xərci (beynəlxalq nəqliyyat xərcləri: Bakı-Naxçıvan-Adana-Naxçıvan-Bakı) və təşkilati xərclər 160 $ təşkil edir.

Sərgidə iştirak edəcəyiniz təqdirdə **01 noyabr 2006-cı il** tarixinə qədər ASK-ya müraciət edə bilərsiniz.

Əlaqə telefonları: 465 72 43 / 465 72 44 / 465 72 45 / 465 72 46
Əlaqələndirici şəxs: Hüsaməddin Əliyev

Hörmətlə,

Ə. Məmmədov
ASK-nın prezidenti